# Topçubaşov Məhkəmə Müsabiqəsi

# 2025

## MÜSABİQƏ İŞİ

Müəllif:
Səbuhi Göyüşov

Veb-sayt: mcs.bsulawss.org
E-poçt: mootcourtsociety@bsulawss.org

§1 Həsənov Teymur Cavanşir oğlu 1981-ci ildə Rusiya Federasiyasının Volqoqrad şəhərində anadan olmuşdur. O həm Rusiya, həm də Azərbaycan vətəndaşlığına malikdir. Onun rəsmi nikahda olduğu və Rusiya vətəndaşı olan həyat yoldaşı Nataşa Həsənovadan Aytac adlı qızı (13 yaş) var. Nataşa Həsənova ilə Teymur Həsənov arasındakı nikah Rusiyada bağlanmış və qeydiyyata alınmış, lakin Azərbaycanda rəsmi şəkildə tanınması üçün hər hansı addım atılmamışdır. Teymur Həsənovun qeyri-rəsmi münasibətdə olduğu Nailə Osmanovadan isə Adil adlı yetkinlik yaşına çatmayan oğlu var. Adil Bakı Dövlət Universiteti Hüquq fakültəsində Hüquqşünaslıq ixtisası üzrə 1-ci kursda əyani təhsil alır.

§2 Teymur Həsənov 1999-2000-ci illər ərzində Gəncə şəhərində, 2002-2003-cü illərdə isə Rusiyada hərbi xidmət etmiş, həmçinin burada zabitlik kursu keçmişdir. O, Rusiya qanunvericiliyinə əsasən, ehtiyatda olan hərbi zabitdir. Teymur Həsənov əvvəllər Rusiyada yaşasa da, 2010-cu ildə Bakıya qayıtmış və 2021-ci ilin sonuna qədər burada işləmişdir. O, Bakıda olduğu müddət ərzində karyerasını uğurla davam etdirmiş, eynək və linzaların satışı ilə məşğul olan "Optika" MMC-nin direktoru vəzifəsinə qədər yüksəlmişdir. 2022-ci ilin əvvəlində isə şəxsi biznes qurmaq üçün yenidən Rusiyaya qayıtmışdır.

§3 "Premium Həyat Sığorta" ASC (bundan sonra – Şirkət) əsas binası Bakıda yerləşən və həyat sığortası üzrə fəaliyyət göstərmək üçün lisenziyaya malik olan sığorta şirkətidir. İllik sığorta yığımlarına görə bazarda 4-cü yerdə olan Şirkət 2023-cü il üzrə səhmdarlara 9,2 milyon AZN dividend ödəmişdir. Şirkət müştərilərə a) *istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından sığorta*; b) *könüllü fərdi sığorta*; və c) *kredit götürən şəxslərin həyat sığortası* məhsullarını təklif edir. Eyni zamanda sosial yönümlü layihələrə böyük önəm verən Şirkət, xüsusilə Qarabağ müharibəsi iştirakçıları üçün daimi qaydada güzəştli ödənişlər (*ex-gratia*) həyata keçirir.

§4 "Güvən Bank" ASC (bundan sonra – Bank) əsas binası Bakıda yerləşən, sığorta agenti lisenziyasına malik olan bankdır və mənfəətinə görə ölkədəki banklar arasında 9-cu yerdədir. Belə ki, Bank tərəfindən 2023-cü ildə səhmdarlara 26,4 milyon AZN dividend ödənmişdir. Əlavə olaraq, Bank, xüsusilə hərbçilərə verdiyi istehlak krediti ilə bazarda digər banklardan fərqlənir. Bank Şirkət ilə bağladığı tapşırıq müqaviləsinə əsasən, Şirkətin sığorta agenti olaraq sığorta vasitəçiliyi fəaliyyəti ilə də məşğul olur.

§5 Teymur Həsənov 2021-ci il 15 noyabr tarixində Bankın mobil tətbiqində videoqeydiyyat vasitəsilə 45 000 AZN məbləğində istehlak krediti götürmüşdür. Kredit illik 16% ilə 3 il müddətinə verilmişdir. Bank ilə Şirkət arasındakı əməkdaşlığa əsasən istehlak krediti götürülən zaman borclunun həyatı Şirkət tərəfindən sığortalanmalıdır. Buna uyğun olaraq Teymur Həsənov krediti götürərkən onun həyatı Şirkət tərəfindən sığortalanmışdır.

§6 Həyat sığorta müqaviləsi isə Şirkətin mobil tətbiqi vasitəsilə bağlanılmışdır. Şirkətin həyat sığortası ilə bağlı daxili prosedurlarına əsasən sığorta şəhadətnaməsi (*Qoşma 1*) barədə məlumatlar Şirkətin tətbiqində doldurulur və kliklənərək təsdiq edilir. Həyat sığorta müqaviləsinin ayrılmaz tərkib hissəsi hesab edilən və şəxsin sağlamlığı barədə sualları özündə ehtiva edən ərizə forması (*Qoşma 2*) isə mobil nömrəyə gələn link vasitəsilə doldurulur. Teymur Həsənov tətbiqdə hüquqi olaraq Nailə Osmanovaya məxsus olan telefon nömrəsini qeyd etmişdir. Ərizə formasının doldurulması isə belə baş tutur: Telefon nömrəsinə gəlmiş linkə daxil olduqdan sonra açılan interfeysdə qeyd olunmuş sağlamlıq suallarına klikləmək yolu ilə cavab verilir, sonra isə təsdiqlənir. Qeyd olunmuş telefon nömrəsinə gələn OTP kodu da təsdiqləndikdən sonra ərizə yekun olaraq təsdiqlənmiş və qüvvəyə minmiş hesab olunur.

§7 Sağlamlıq barədə ərizə formasında *"Hərbi mükəlləfiyyətiniz mövcuddurmu?"* sualına *"Bəli"* cavabı kliklənmişdir. Sığorta ərizəsinin doldurulduğu interfeysdə "*Bəli*" cavabı verdikdən sonra *"Əgər "Bəli" seçmisinizsə, bu barədə ətraflı məlumat verin"* adlı bir xana açılır. Ərizə doldurularkən bu hissə boş buraxılmış və ərizə forması bu qaydada təsdiq edilmişdir. Bu hissə doldurulmadığı təqdirdə sığorta şəhadətnaməsi aşağıdakı qeydlə hazırlanır: "*Müharibə istisna olmaqla, hərbi əməliyyatlar nəticəsində baş verən hadisələrə təminat verilir*". Əgər bu hissə doldurulsa idi, bu zaman burada olan qeydlər sığortaçının anderraytinq mütəxəssislərinə gedəcək və nəticədə, sığorta olunan fərdi qaydada qiymətləndiriləcəkdi. Bu hissədə Teymur Həsənovla bağlı faktlar öz əksini tapsa idi, güman ki, hərbi əməliyyatlar da istisna kimi nəzərə alınacaqdı.

§8 Sığorta şəhadətnaməsi Azərbaycan Respublikasının Maliyyə Nazirliyi Kollegiyasının 23 sentyabr 2014-cü il tarixli Q-21 nömrəli qərarı ilə təsdiq edilmiş "Fiziki şəxslərə təqdim edilən kredit müqavilələri üzrə borcalanın həyatının ölüm halından və əmək qabiliyyətinin itirilməsi hallarından sığortası qaydaları"na əsasən tərtib edilmişdir. Həmin qaydaların 13.6.2-ci bəndinə uyğun olaraq şəhadətnamə azalan sığorta məbləği formasındadır.

§9 Sığorta şəhadətnaməsi üzrə sığorta məbləği 45 000 AZN, illik sığorta haqqı isə 205,15 AZN təşkil etmişdir. Teymur Həsənov kredit almaq üçün Banka müraciət edərkən xəstəlik vərəqəsini də təqdim edərək müvəqqəti olaraq əmək qabiliyyətini itirdiyini bildirdiyindən Şirkət anderraytinq nəticəsində sığorta haqqına əlavə etmişdir. Teymur Həsənov özü haqqındakı bu məlumatı kredit üçün müraciət edərkən Bankın mobil tətbiqində qeyd etmişdir. Şirkət isə Bank ilə qurduğu inteqrasiya sayəsində həmin məlumatı əldə etmişdir. Əgər anderraytinqdə heç bir əlavə risk müəyyən edilməsə idi, standart sığorta şəhadətnaməsi üzrə illik sığorta haqqı 164,12 AZN olmalı idi.

§10 Teymur Həsənov 2022-ci ilin 14 aprel tarixində Rusiyada olarkən Ukraynaya qarşı aparılan hərbi əməliyyatlara cəlb olunmuşdur. 17 avqust 2022-ci il tarixində Ukraynada gedən hərbi əməliyyatlarda yaralanmış, 27 noyabr 2022-ci il tarixində isə

Rusiya qanunvericiliyinə uyğun olaraq ona I qrup əlillik təyin edilmişdir. Kredit müqaviləsinin ödəniş qrafikinə (*Qoşma 3*) əsasən, 17 avqust tarixində ödənilməli olan borc 35675,05 AZN, 27 noyabr tarixində 32311,40 AZN olmuşdur.

§11 Teymur Həsənov hərbi əməliyyatlara cəlb olunduqdan sonra Nataşa Həsənova onun şəxsi biznesinin başına keçmişdir. Habelə o yaralandıqdan sonra kredit müqaviləsi üzrə dövri ödənişlər Nataşa Həsənova tərəfindən həyata keçirilmişdir. Teymurun əlilliyi ilə əlaqədar tibbi ehtiyaclar artdığı üçün artıq kredit ödənişlərinin verilməsində gecikmələr yaranmışdır.

§12 Teymur Həsənov istehlak kreditinin bir hissəsini Adilin illik təhsil haqqını ödəmək üçün götürmüşdür. O yaralandıqdan sonra Rusiyada aldığı əlilliyin təsdiqinə dair sənədini Adilin universitetinə təqdim etmək və onun təhsil haqqı ödənişindən müəyyən möhlət verilib-verilməyəcəyini dəqiqləşdirmək üçün Nailə Osmanovaya göndərmişdir. Nailə Osmanova əlillik sənədini aldıqdan sonra ümumi etibarnamə (*Qoşma 4*) əsasında Teymur Həsənovun xəbəri olmadan Şirkətə sığorta ödənişi üçün də müraciət etmişdir. Şirkəti isə aşağıdakıları əsas gətirərək imtina məktubu (*Qoşma 5*) ilə ödəniş verməkdən imtina etmişdir:

i. Müharibə sığorta şəhadətnaməsində istisna kimi müəyyən olunmuşdur.
ii. Sağlamlıq haqqında ərizə forması doldurularkən "*Hərbi mükəlləfiyyətiniz mövcuddurmu?*" sualına "*Bəli*" cavabı verilsə də, digər xana doldurulmamışdır. Əgər həmin xana doldurulsa idi, Teymur Həsənovun Rusiya Federasiyası qarşısında hərbi mükəlləfiyyətli olması sığorta şirkətinin anderrayterləri tərəfindən təhlil ediləcək və hərbi əməliyyatlar ümumən istisna kimi müəyyənləşdiriləcəkdi. Əlavə olaraq, sığortaçı normalda 164,12 AZN sığorta haqqı təyin etməli idisə, sığorta riskinə hərbi əməliyyatlar da daxil olduğu üçün sığorta haqqı 234,46 AZN olacaqdı.
iii. Teymur Həsənovun əlilliyi Rusiya qanunvericiliyinə əsasən təyin edilmişdir. Şirkət isə Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən təyin edilmiş əlilliyə görə ödəniş verə bilər.

§13 Şirkət imtina məktubunu Nailə Osmanovaya çatdırmaqla yanaşı, Teymur Həsənovun qeydiyyatda olduğu ünvana da göndərmişdir. Orada yaşayan atası Cavanşir Həsənov bu cavabı Teymur Həsənovla bölüşmüşdür. Teymur Həsənov bundan sonra özü Şirkətə müraciət etmiş, Şirkət isə Nailə Osmanovaya verdiyi cavabı Teymur Həsənova da göndərmişdir. Bunun ardınca Teymur Həsənov 19 fevral 2023-cü il tarixində[1] Azərbaycanda əlillik almışdır. Daha sonra Şirkətə yenidən müraciət edərək aşağıdakıları bildirmişdir:

[1] Ödəniş qrafikinə əsasən, 19 fevral 2023-cü il tarixinə ödənilməli məbləğ 28 811,40 AZN-dir.

i. Ukraynada baş verən hərbi əməliyyatlar Rusiyada müharibə kimi nəzərə alınmır, buna görə də sığorta ödənişi verilməlidir.
ii. Əgər ərizədə qeyd edilən "*Əgər "Bəli" seçmisinizsə, bu barədə ətraflı məlumat verin*" xanasının doldurulması məcburi olsa idi, bu xana doldurulmadan sığorta müqaviləsi təsdiqlənməməli idi.
iii. Sığortaçı elektron qaydada sığorta müqaviləsinin bağlanılması qaydalarını pozmuşdur. Belə ki, əslində, ərizə Teymur Həsənov tərəfindən doldurulmamış, Nailə Osmanova onun yerinə sığorta müqaviləsində olan suallara cavab vermişdir.
iv. Şirkəti cavab məktubunda Teymur Həsənov barədə məlumatları onun heç bir yazılı imzası olmadan Nailə Osmanovaya bildirərək ona məxsus sığorta sirrini pozmuşdur. Bu səbəbdən Şirkət Teymura 5 000 AZN əlavə təzminat verməlidir.
v. Əlavə olaraq, standart sığorta haqqının 164,12 AZN olmasına baxmayaraq Teymur Həsənovdan 205,15 AZN alınmasının səbəbi dərhal açıqlanmalıdır.

§14 Şirkət bu müraciətə cavab verərək bildirmişdir ki:

i. Baş verən hərbi əməliyyatlar bütün dünya mətbuatında və beynəlxalq hüquqa əsasən müharibə kimi nəzərə alınır.
ii. Mülki Məcəllənin 911.2-ci maddəsinə əsasən, şəxs müqavilə barədə bütün məlumatları Sığortaçıya təqdim etməlidir. Yəni Teymur Həsənov sözügedən xananı boş saxlamaqla pozuntuya yol vermişdir.
iii. Ərizənin sığortalanan şəxsin özü tərəfindən doldurulmaması onun etibarsızlığına səbəb olur. Eyni zamanda sığorta şəhadətnaməsində belə bir bənd mövcuddur ki, əgər ərizə etibarsızdırsa, sığorta şəhadətnaməsi də etibarsızdır. Bu səbəbdən ərizənin etibarsızlığı sığorta müqaviləsinin etibarsızlığı mənasına gəlir. Bu isə o deməkdir ki, Şirkət tərəfindən Teymur Həsənova heç bir ödəniş verilə bilməz.
iv. Sığorta şəhadətnaməsinə əsasən, sığortalının ailə üzvləri faydalanan şəxsdir. Yəni Adil faydalanan şəxs kimi Teymur Həsənov barəsində məlumatları əldə edə bilər. Adil yetkinlik yaşına çatmadığı üçün onun valideyni olan Nailə Osmanovanın da bu məlumata çıxışı var. Bu səbəbdən sığortaçı Teymur Həsənov barədə məlumatları Nailə Osmanovaya təqdim edə bilər. Bundan əlavə, Teymur Həsənov tərəfindən Nailə Osmanovaya verilmiş etibarnamədə "müəssisələrdən məlumat almaq" səlahiyyəti də ona verilmişdir. Sığorta sirrinin mühafizəsi qaydası pozulsa idi belə, burada Teymur Həsənova dəyən faktiki zərər olmadığı üçün, habelə 5000 AZN kompensasiya məbləğinin heç bir əsaslandırılması olmadığından bu vəsait verilə bilməz.
v. Sığorta haqqı məbləği barədə isə sığortaçı bildirir ki, Bankla bağlanan tapşırıq müqaviləsinə görə, sığorta agenti olan Bank sığorta olunan barədə bildiyi bütün məlumatları sığortaçıya ötürməlidir. Buna görə də Bankla Şirkət arasında müvafiq inteqrasiya qurulub və Teymur Həsənovun əmək qabiliyyətini müvəqqəti itirməsi ilə bağlı sığorta agentinə verilmiş məlumat avtomatik olaraq

Şirkətə də yönləndirilmişdir. Nəticədə, sığorta haqqına avtomatik əlavə edilmişdir.

§15 Teymur Həsənov daha sonra Şirkətə son dəfə müraciət etmiş və bildirmişdir ki, Bank Şirkət ilə bank sirri hesab edilən məlumatları bölüşməməli idi. Buna görə də o, əlavə 10 000 AZN kompensasiya tələb edir. Özünün Rusiya vətəndaşı kimi xidmət etdiyini bildirən Teymur Həsənov baş verən silahlı münaqişənin Rusiyada müharibə adlandırılmadığını əsas gətirərək ödəniş edilməsini tələb edir və son olaraq qeyd edir ki, iddiası təmin edilməsə, məhkəməyə müraciət edəcəkdir.

§16 İddiaları təmin olunmadığı üçün Teymur Həsənov aşağıdakı tələbləri irəli sürərək məhkəməyə müraciət etmişdir:

i. Teymur Həsənovun 17 avqust 2022-ci il tarixinə Bank qarşısında olan borc məbləği (35675,05 AZN) Şirkət tərəfindən qarşılansın.
ii. Şirkət Teymur Həsənov barədə məlumatları Nailə Osmanovaya verərək sığorta sirrini pozduğu üçün ona 5 000 AZN məbləğində kompensasiya versin.
iii. Şirkət qanunsuz olaraq Bankdan Teymur Həsənovun sağlamlığı ilə bağlı məlumat əldə etdiyi üçün isə 10 000 AZN əlavə kompensasiya versin.
iv. Standart sığorta şəhadətnaməsi üzrə sığorta haqqı 164,12 AZN olmalı idi, Teymur Həsənov isə 205,15 AZN sığorta haqqı ödəmişdir. Bu səbəbdən Teymurun hər il standart sığorta haqqı məbləğindən artıq ödədiyi əlavə 41.03 AZN məbləğ ona geri qaytarılsın.

§17 Birinci instansiya məhkəməsi sığorta müqaviləsində müharibənin istisna kimi müəyyənləşdirilməsini, habelə Teymur Həsənovun ərizədəki xananı boş saxlayaraq Mülki Məcəllənin 911.2-ci maddəsini pozmasını əsas gətirərək ilk tələbi əsassız hesab etmişdir. Məhkəmə qeyd etmişdir ki, hətta sığorta ödənişi edilsə belə, 17 avqust 2022-ci il tarixi yox, Teymur Həsənova Azərbaycanda əlilliyin təyin edildiyi 19 fevral 2023-cü il tarixi əsas götürülməlidir. Sığorta sirri ilə bağlı məsələdə məhkəmə "Sığorta fəaliyyəti haqqında" AR Qanununun 6-cı maddəsində faydalanan şəxsin də vurğulandığı bildirərək Teymur Həsənov barədə məlumatların faydalanan şəxsə və nəticədə onun qanuni nümayəndəsinə açıqlana biləcəyini qeyd etmişdir. Bu səbəbdən məhkəmə Teymur Həsənov barədə məlumatların onun yazılı imzası olmadan digər şəxslərə ötürülə bilməsi məsələsinə də toxunmamışdır. Üçüncü tələblə bağlı məhkəmə qeyd etmişdir ki, sığorta agentinə verilən məlumat sığortaçıya da verilmiş hesab edilir. Əlavə olaraq, bu iddia mümkünsüz hesab edilməlidir, çünki iddia üzrə cavabdeh Şirkət ola bilməz, Banka qarşı müstəqil iddia qaldırılmalıdır. Bunlarla yanaşı, Məhkəmə ərizənin etibarsızlığı ilə bağlı qeyd etmişdir ki, Teymur Həsənov Nailə Osmanovaya etibarnamə verdiyi üçün ərizə Nailə Osmanova tərəfindən də doldurula bilərdi. Buna görə də ərizə etibarlı hesab edilməlidir.

§18 Bundan sonra Teymur Həsənov Apellyasiya Məhkəməsinə şikayət etmişdir. Apellyasiya Məhkəməsi şikayəti qismən təmin etmişdir. Belə ki, Məhkəmə Ukraynada baş verən hadisələrin Rusiyanın rəsmi mövqeyinə əsasən müharibə hesab edilməməsini bildirərək sığorta ödənişinin verilməsini əsaslı hesab etmişdir. Bununla yanaşı, sığorta ödənişi üçün bədbəxt hadisə tarixinin (17 avqust 2022-ci il) əsas götürülməsini bildirmiş və 35675,05 AZN məbləğində sığorta ödənişinin verilməsinə qərar vermişdir. Əlavə olaraq, Məhkəmə bildirmişdir ki, Şirkət üçün əlavə xananın doldurulması vacib olsa idi, bu xana doldurulmadan müqavilə bağlanmamalı idi. Həmçinin məhkəmə qeyd etmişdir ki, 911.2-ci maddə mahiyyət etibarilə qeyri-həyat sığortasına aid bənd olduğundan həyat sığortası üzrə tətbiq edilməməlidir. Məhkəmə vurğulamışdır ki, Bank tərəfindən məlumatın ötürülməsində Şirkətin heç bir təqsiri yoxdur və kompensasiya Şirkətdən tələb edilə bilməz. Bununla belə, sığortaçı özünə təqdim edilməmiş məlumata istinad etdiyi üçün qanun pozuntusu etmişdir. Buna görə də 82,06 AZN (2021 və 2022-ci illər üzrə ödənilən əlavə sığorta haqlarının cəmi) Teymur Həsənova geri qaytarılmalıdır.

§19 Şirkət bu qərardan Ali Məhkəməyə şikayət vermişdir. Ali Məhkəmə isə birinci instansiya məhkəməsinin mövqeyi ilə tam üst-üstə düşən qərar verərək Şirkətin xeyrinə qərar çıxarmışdır.

§20 Teymur Həsənov bundan sonra kassasiya instansiyasının qərarı barədə Konstitusiya Məhkəməsinə şikayət etmişdir.

§21 Teymur Həsənov və Şirkət öz mövqelərinə uyğun olaraq aşağıdakı suallar üzrə mülahizələrini[2] Konstitusiya Məhkəməsinə yazılı şəkildə təqdim etməlidir:

i. Rusiya ilə Ukrayna arasında baş verən hadisələrin müharibə hesab edilməsi və beləliklə, sığorta ödənişindən imtina edilməsi hüquqauyğundurmu?

ii. Bədbəxt hadisə nəticəsində baş verən sığorta hadisəsinin tarixinin müəyyənləşdirilməsi qanunvericiliklə dəqiq tənzimlənmədiyi halda, sığorta ödənişinin verilməsi üçün əlilliyin təyin edildiyi tarixin əsas götürülməsi ümumi sığorta prinsiplərinə ziddirmi?

iii. Sığortalanma barədə ərizə etibarnamə ilə doldurulduğu üçün onun etibarsız hesab edilməsi və bunun nəticəsində sığorta müqaviləsinin də etibarsız sayılması hüquqauyğundurmu?

iv. Sığortaçının sığorta olunan barədə məlumatları faydalanan şəxsə və ya sığorta olunanın ailə üzvlərinə verməsi sığorta olunanın Konstitusiyada təsbit edilən şəxsi toxunulmazlıq hüququnu pozurmu?

[2] Teymur Həsənovun yazılı təqdimatı "Ərizəçi" kimi, Şirkətin yazılı təqdimatı "Cavabverən" kimi işarələnməlidir.

v. “Fərdi məlumatlar haqqında” AR Qanunu fərdi məlumatların ötürülməsi üçün yazılı razılıq və ya elektron imza tələbi müəyyənləşdirirsə, mobil tətbiq vasitəsilə bağlanmış müqavilə əsasında sığorta olunanın fərdi məlumatlarının ötürülməsi hüquqauyğundurmu?

***Qoşma 1. Sığorta şəhadətnaməsi***

**SIĞORTA ŞƏHADƏTNAMƏSİ**

| | |
|---|---|
| **Şəhadətnamə №** | Cred - 0792/21 |
| **Sığorta agenti** | "Güvən Bank" ASC, VÖEN: 1234567890, Hüquqi ünvan: Bakı şəhəri, Binəqədi rayonu, Şövkət Məmmədova küçəsi 11 |
| **Sığortalının A.S.A., FİN-i və təvəllüdü** | Teymur Həsənov Cavanşir oğlu, FİN: 34JK2N50, Təvəllüd: 03.06.1981 |
| **Sığortalının ünvanı, mobil telefon nömrəsi, elektron poçt ünvanı** | Bakı şəhəri, Xətai rayonu, Gəncə prospekti 49, mən. 29, 0503476533, naile83@gmail.com |
| **Sığortaçı** | "Premium Həyat Sığorta" ASC |
| **Sığortaçının ünvanı** | Bakı şəhəri, Nizami rayonu, Ağaoğlu Həsənov küçəsi, Ağaoğlu Plaza. |
| **Faydalanan şəxs** | Kredit öhdəliyi həcmində "Güvən Bank" ASC, yerdə qalan məbləğ həcmində sığortalının ailə üzvləri. |
| **Sığorta təminatının qüvvədə olduğu ərazi** | Bütün Dünya |
| **Sığorta təminatı** | Bu sığorta şəhadətnaməsi ilə Azərbaycan Respublikası Maliyyə Nazirliyinin 23.09.2014-cü il tarixli, Q-21 nömrəli qərarı ilə təsdiq edilmiş "Fiziki şəxslərə təqdim edilən kredit müqavilələri üzrə borcalanın həyatının ölüm halından və əmək qabiliyyətinin itirilməsi hallarından sığortası qaydaları"na (bundan sonra "Qaydalar" adlandırılacaq) uyğun olaraq aşağıdakılara təminat verilir: |

**sığortalının ölməsi** – *qalıq borc məbləğinin 100%-i həcmində, birdəfəlik sığorta ödənişi şəklində.*
**sığortalıya xəstəlik və ya bədbəxt hadisə nəticəsində 1-ci dərəcə əlilliyin təyin edilməsi;** – *qalıq borc məbləğinin 100%-i həcmində, birdəfəlik sığorta ödənişi şəklində.*
**sığortalıya xəstəlik və ya bədbəxt hadisə nəticəsində 2-ci dərəcə əlilliyin təyin edilməsi;** – *qalıq borc məbləğinin 50%-i həcmində.*
**sığortalıya xəstəlik və ya bədbəxt hadisə nəticəsində 3-cü dərəcə əlilliyin təyin edilməsi;** – *qalıq borc məbləğinin 10%-i həcmində.*

**Sığorta müddəti** Sığorta təminatının başlanma tarixi 15.11.2021, 23:59

Sığorta təminatının bitmə tarixi: 15.11.2024, 23:59

**Sığorta məbləği** 45 000 AZN

**Sığorta haqqı** 205,15 AZN (illik)

**Şərtlər**

1. Sığortalıya müddətli II və III dərəcə əlillik təyin olunduqda, əlillik müəyyən edilmiş dövr ərzində kreditin ödəniş qrafikinə uyğun olaraq hər dövr üzrə ödənilməli borc məbləğinin müvafiq olaraq 50 və 10%-i həcmində aylıq ödənilir.
2. Sığortaçı qeyd edilən təminatlar üzrə kredit ödəniş qrafikinə uyğun olaraq Sığortalının son ödəniş etməli olduğu tarixdən hadisə baş verən günədək hesablanan kredit faizlərinin ödənilməsini də öz öhdəsinə götürür.
3. Kredit ödəniş qrafiki üzrə müəyyən edilmiş məbləğ sığorta məbləğindən artıq olarsa, sığorta ödənişi sığorta məbləği həcmində həyata keçirilir. Heç bir halda faizlər daxil olmaqla, sığorta ödənişinin həcmi sığorta məbləğinin həcmindən çox ola bilməz. Sığortaçı kreditin gecikdirilməsi ilə əlaqədar cərimə və s. məbləğlərə görə heç bir məsuliyyət daşımır.
4. Sığorta hadisəsi ilə bağlı Sığortaçı ona son sənədlər təqdim edildikdən sonra sığorta ödənişinin həyata keçirilməsinə "Qaydalar"da nəzərdə tutulmuş vaxtdan əlavə vaxt sərf etdikdə, həmin müddətə hesablanmış faizlər də onun tərəfindən ödənilir.
5. Şəhadətnamə üzrə sığorta haqqı və sığorta məbləği xarici valyutada göstərildikdə, sığorta ödənişi Azərbaycan Respublikasının Mərkəzi Bankının ödəniş tarixinə rəsmi məzənnəsi əsasında manat ekvivalenti ilə həyata keçirilir.
6. Sığorta müqaviləsi qüvvədə olduğu müddət ərzində qanunvericiliyə dəyişiklik olduğu təqdirdə Sığortaçı Sığorta müqaviləsi qüvvəyə minən tarixə qüvvədə olan əlillik meyarlarına əsasən sığorta hadisəsinin tənzimlənməsini və ödənişin verilməsini həyata keçirəcəkdir.
7. Sığortalı bu şəhadətnamə ilə təsdiq edir ki, sığortalanma barədə ərizə forması bu şəhadətnamənin ayrılmaz tərkib hissəsini təşkil edir. Ərizə formasının etibarsızlığı sığorta müqaviləsinin etibarsızlığına səbəb olur.
8. Bu sığorta müqaviləsi üzrə müharibə istisna olmaqla, bütün hərbi əməliyyatlara təminat verilir.
9. Bu şəhadətnamə "Qaydalar"a əsasən tərtib edilmişdir. Sığortalı bu şəhadətnaməni təsdiqləməklə "Qaydalar"la tanış olmasını bildirir. "Qaydalar" "Premium Həyat Sığorta" ASC-nin rəsmi saytında yerləşdirilmişdir. "Qaydalar" ilə bu şəhadətnamə arasında hər hansı uyğunsuzluq olarsa, "Qaydalar" əsas götürüləcəkdir. Sığorta şəhadətnaməsi və "Qaydalar" birlikdə sığorta müqaviləsini əmələ gətirir.
10. Şəhadətnamədən irəli gələn məsələlər Azərbaycan Respublikasının qanunvericiliyi ilə tənzimlənir.

11. Sığortalı razılıq verir ki, Sığortaçı sığorta əməliyyatlarının aparılması məqsədilə sığortalı barədə məlumatları istənilən müəssisədən ala bilər, habelə digər şəxslərə ötürə bilər.
12. Sığortalı onun bu şəhadətnamədə qeyd olunmuş ünvanı, e-poçt ünvanı, mobil telefon nömrəsi və mobil telefonunda istifadə etdiyi tətbiqlərə ("Whatsapp", "Telegram" və s.) göndərilmiş, habelə Şəxsi Kabinet vasitəsilə və ya bu müqavilə üzrə sığorta agenti olduğu təqdirdə həmin sığorta agentinin mobil tətbiqi vasitəsilə ona çatdırılmış hər hansı yazışma, məktub, bildiriş, mesaj və s.-nin onun tərəfindən qəbul olunmuş kimi hesab ediləcəyini təsdiq edir.
13. Sığortalı sığorta şəhadətnaməsi üzrə əlavə məlumat almaq, həmçinin sığorta hadisəsi baş verdikdə Sığortaçının nümayəndəsi ilə əlaqə saxlamaq (dərhal, lakin 30 (otuz) təqvim günündən gec olmayaraq) üçün aşağıdakı telefon nömrəsinə zəng edə bilər: Əlaqə nömrəsi: (+994 12) 111
14. Şikayət üzrə verilmiş cavab Sığortalını qane etmədiyi təqdirdə həmçinin sığorta müqaviləsi üzrə hüquqlarının pozulmasını hesab etdiyi hallarda, Sığortalının Azərbaycan Respublikasının Mərkəzi Bankına şikayətlə müraciət etmək hüququ var. Ünvan: Azərbaycan Respublikası, Bakı şəhəri, Bülbül prospekti 27, Tel: (+994 12) 966

## *Qoşma 2. Sığorta ərizəsi*

PREMIUM HƏYAT

## ƏRİZƏ FORMASI

| | |
|---|---|
| **Sığortalının A.S.A və təvəllüdü:** | Teymur Həsənov Cavanşir oğlu, FİN: 34JK2N50, Təvəllüd: 03.06.1981-ci il |
| **Sığortalının ünvanı:** | Bakı şəhəri, Xətai rayonu, Gəncə prospekti 49, mən. 29. |
| **Telefon/elektron poçt:** | 0503476533, thesenov1981_ahmedli@gmail.com |
| **Ş/V nömrəsi/FİN:** | 34JK2N50 |
| **İş yeri:** | Yoxdur |
| **Sığorta məbləği:** | 45 000 AZN |
| **Sığorta müddəti:** | 36 ay |
| **Təminat(lar):** | Sığortalının ölümü<br>Bədbəxt hadisə və ya xəstəlik nəticəsində orqanizmin funksiyalarının pozulmasına görə I, II və III dərəcə əlilliyin müəyyən edilməsi |
| **Boy (sm)/çəki (kq):** | 179 sm, 85 kq |

## Suallar

| | | |
|---|---|---|
| 1. Siz aşağıda göstərilən xəstəliklərdən hər-hansı birini keçirmisinizmi? (Varsa, qeyd etməyiniz xahiş edilir.):<br><br>***Ürək-damar sisteminin xəstəlikləri***<br>□ *Ürəyin işemik xəstəliyi*<br>□ *Hipertoniya*<br>□ *Miokard infarktı*<br>***İfrazat sisteminin xəstəlikləri***<br>□ *Böyrək çatışmazlığı*<br>□ *Qlomerulonefrit*<br>□***Qan xəstəliyinin istənilən forması***<br>□***Limfa vəzilərinin xəstəliyi***<br>***Endokrin xəstəliklər***<br>□ *Diabet*<br><br>***Mədə-bağırsaq xəstəlikləri***<br>□ *Qaraciyər xəstəliyi*<br>□ *Hepatit*<br>□ **Nevroloji xəstəliklər**<br>***Tənəffüs sisteminin xəstəlikləri***<br>□ *Astma*<br>□ *Tənəffüs çatışmazlığı*<br>□ *Vərəm*<br>□ *Xroniki bronxit*<br>***Onkoloji xəstəliklər***<br>□ *Bədxassəli şişlər*<br><br>***Qeyd yeri:***<br>____________________<br>____________________<br>____________________<br>____________________<br>____________________<br>____________________<br>____________________ | Bəli<br>• | **Xeyr**<br>• |
| 2. Hərbi mükəlləfiyyətiniz mövcuddurmu? (Əgər "Bəli" seçmisinizsə, aşağıda ətraflı qeyd edin.)<br><br>**Qeyd hissəsi:** ________________________________________ | **Bəli**<br>• | Xeyr<br>• |

*Sığortaçıya qəsdən yanlış və/və ya yarımçıq məlumat verməyimin sığorta ödənişindən imtina üçün əsas olduğu barədə xəbərdar edilmişəm. Bu ərizə formasında sağlamlığımla bağlı verdiyim bütün məlumatların tam dolğun, doğru və dürüst olduğunu təsdiq*

*edirəm. Bu ərizə formasını təsdiq etməklə bildirirəm ki, özümə məlum olan, habelə Sığortaçının məndən tələb etdiyi və sığorta müqaviləsindən imtina etmək, yaxud onu məzmunu dəyişdirilmiş şəkildə bağlamaq qərarına təsir göstərə bilən heç bir hal və ya vəziyyət yoxdur.*

**Tarix:** 15.11.2021. **İmza:** *Elektron qaydada 0503476533 nömrəsinə göndərilən OTP vasitəsilə təsdiq edilmişdir.*

***Qoşma 3. Kredit müqaviləsinin ödəniş qrafiki***

Güvən Bank

**15 noyabr 2021-ci il tarixli GB-100234 nömrəli kredit müqaviləsinə**
**Əlavə №1**

| **Borcalan** | Həsənov Teymur Cavanşir oğlu | | | |
|---|---|---|---|---|
| **Ödəmə tarixləri** | **Kredit üzrə qalıq əsas borc məbləği** | **Faiz üzrə ödənişlər** | **Kredit üzrə ödənişlər (əsas)** | **Aylıq ödəniş** |
| **15.11.2021** | AZN 45,000.00 | AZN 600.00 | AZN 982.07 | AZN 1582.07 |
| **15.12.2021** | AZN 44,017.93 | AZN 586.91 | AZN 995.16 | AZN 1582.07 |
| **15.01.2022** | AZN 43,022.77 | AZN 573.64 | AZN 1,008.43 | AZN 1582.07 |
| **15.02.2022** | AZN 42,014.34 | AZN 560.19 | AZN 1,021.88 | AZN 1582.07 |
| **15.03.2022** | AZN 40,992.47 | AZN 546.57 | AZN 1,035.50 | AZN 1582.07 |
| **15.04.2022** | AZN 39,956.97 | AZN 532.76 | AZN 1,049.31 | AZN 1582.07 |
| **15.05.2022** | AZN 38,907.66 | AZN 518.77 | AZN 1,063.30 | AZN 1582.07 |
| **15.06.2022** | AZN 37,844.36 | AZN 504.59 | AZN 1,077.47 | AZN 1582.07 |
| **15.07.2022** | AZN 36,766.89 | AZN 490.23 | AZN 1,091.84 | AZN 1582.07 |
| **15.08.2022** | AZN 35,675.05 | AZN 475.67 | AZN 1,106.40 | AZN 1582.07 |
| **15.09.2022** | AZN 34,568.65 | AZN 460.92 | AZN 1,121.15 | AZN 1582.07 |
| **15.10.2022** | AZN 33,447.50 | AZN 445.97 | AZN 1,136.10 | AZN 1582.07 |
| **15.11.2022** | AZN 32,311.40 | AZN 430.82 | AZN 1,151.25 | AZN 1582.07 |
| **15.12.2022** | AZN 31,160.15 | AZN 415.47 | AZN 1,166.60 | AZN 1582.07 |
| **15.01.2023** | AZN 29,993.55 | AZN 399.91 | AZN 1,182.15 | AZN 1582.07 |
| **15.02.2023** | AZN 28,811.40 | AZN 384.15 | AZN 1,197.91 | AZN 1582.07 |
| **15.03.2023** | AZN 27,613.48 | AZN 368.18 | AZN 1,213.89 | AZN 1582.07 |
| **15.04.2023** | AZN 26,399.60 | AZN 351.99 | AZN 1,230.07 | AZN 1582.07 |
| **15.05.2023** | AZN 25,169.53 | AZN 335.59 | AZN 1,246.47 | AZN 1582.07 |
| **15.06.2023** | AZN 23,923.05 | AZN 318.97 | AZN 1,263.09 | AZN 1582.07 |
| **15.07.2023** | AZN 22,659.96 | AZN 302.13 | AZN 1,279.93 | AZN 1582.07 |
| **15.08.2023** | AZN 21,380.03 | AZN 285.07 | AZN 1,297.00 | AZN 1582.07 |

| | | | | |
|---|---|---|---|---|
| **15.09.2023** | AZN 20,083.03 | AZN 267.77 | AZN 1,314.29 | AZN 1582.07 |
| **15.10.2023** | AZN 18,768.73 | AZN 250.25 | AZN 1,331.82 | AZN 1582.07 |
| **15.11.2023** | AZN 17,436.92 | AZN 232.49 | AZN 1,349.57 | AZN 1582.07 |
| **15.12.2023** | AZN 16,087.34 | AZN 214.50 | AZN 1,367.57 | AZN 1582.07 |
| **15.01.2024** | AZN 14,719.77 | AZN 196.26 | AZN 1,385.80 | AZN 1582.07 |
| **15.02.2024** | AZN 13,333.97 | AZN 177.79 | AZN 1,404.28 | AZN 1582.07 |
| **15.03.2024** | AZN 11,929.69 | AZN 159.06 | AZN 1,423.00 | AZN 1582.07 |
| **15.04.2024** | AZN 10,506.69 | AZN 140.09 | AZN 1,441.98 | AZN 1582.07 |
| **15.05.2024** | AZN 9,064.71 | AZN 120.86 | AZN 1,461.20 | AZN 1582.07 |
| **15.06.2024** | AZN 7,603.51 | AZN 101.38 | AZN 1,480.69 | AZN 1582.07 |
| **15.07.2024** | AZN 6,122.82 | AZN 81.64 | AZN 1,500.43 | AZN 1582.07 |
| **15.08.2024** | AZN 4,622.39 | AZN 61.63 | AZN 1,520.43 | AZN 1582.07 |
| **15.09.2024** | AZN 3,101.96 | AZN 41.36 | AZN 1,540.71 | AZN 1582.07 |
| **15.10.2024** | AZN 1,561.25 | AZN 20.82 | AZN 1,561.25 | AZN 1582.07 |

**Sənəd elektron qaydada təsdiq edilmişdir.**

*Qoşma 4. Etibarnamə*

**№ 334455**

ETİBARNAMƏ

**Bakı şəhəri**
**01.11.2020**

a) **ETİBAR EDƏN(lər)/TƏMSİL EDİLƏN(lər) (**cəmi **1 nəfər):**
1. BAKI ŞƏHƏRİ, XƏTAİ RAYONU, GƏNCƏ PROSPEKTİ 49, MƏNZİL 29 ünvanında qeydiyyatda olan HƏSƏNOV TEYMUR CAVANŞİR OĞLU (ŞV: AA78983450, 17.12.2019, FİN: 34JK2N50, d/t: 03.06.1981)***

b) **ETİBAR EDİLƏN(lər)/TƏMSİL EDƏN(lər) (**cəmi **1 nəfər):**
1. BAKI ŞƏHƏRİ, YASAMAL RAYONU, A.M.ŞƏRİFZADƏ 239 ünvanında qeydiyyatda olan OSMANOVA NAİLƏ ƏLİDADAŞ QIZI (ŞV: AA23447510, 03.09.2023, FİN: 21OC4D3, d/t: 11.08.1985)***

**Etibarnamə üzrə HƏSƏNOV TEYMUR CAVANŞİR OĞLU tərəfindən verilən səlahiyyətlər:** Həmin etibarnamə ilə harada yerləşməsindən və nədən ibarət olmasından asılı olmayaraq rəsmi reyestrlərdə qeydə alınmış bütün daşınar və daşınmaz əmlaklarımı idarə etməyi və onaların üzərində sərəncam verməyi, buna müvafiq olaraq bütün hallarda öz mülahizəsinə görə məbləği, müddəti və digər şərtləri müəyyən etməklə qanunla icazə verilmiş bütün əqdləri, o cümlədən: almaq, satmaq, bağışlamaq, dəyişmək, əmlakı ipoteka (girov) qoymaq haqqında əqdləri bağlamağı, bu əqdlər üzrə haqq-hesab aparmağı, ipotekadan (girovdadan) azad etməyi, özəlləşdirməyi, icarəyə və kirayəyə verməyi, buna dair müqavilələr bağlamağı və imzalamağı, zəruri sənədləri təhvil verməyi, vərəsəlik işini rəsmiləşdirməyi, mirası qəbul etməyi və ya ondan imtina etməyi, mirasın qəbulu barədə ərizəni imzalamağı, vərəsəlik hüququ haqqında şəhadətnaməni almağı, şəhadətnaməni müvafiq orqanlara təqdim edib çıxarış, texniki pasport, plan-cizgi almağı, həmçinin məni Azərbaycan Respublikasının istənilən səlahiyyətli orqanlarında, bütün nazirliklərdə, dövlət komitələrində, dövlət xidmətlərində, agentliklərdə, xüsusilə də, Səfərbərlik və Hərbi çağırış üzrə Dövlət Xidmətində, Elm və Təhsil Nazirliyində, Xarici İşlər Nazirliyində, Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətində, Bakı Dövlət Universitetində, səfirliklərdə, konsulluqlarda, Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin müvafiq Ərazi İdarələrində, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsində, bələdiyyələrdə, İcra Hakimiyyətində, Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fondunda, Azərbaycan Respublikası DİN DYPİ RQİŞ-də, qeydiyyat şöbələrində, Asan Xidmət Mərkəzlərində, DOST Mərkəzlərində, "Azercell Telekom" MMC-də, Bakcell LTD MMC-də, Nar Mobile şirkətində, notariat ofislərində, vergi orqanlarında, hava limanında, gömrük məntəqələrində, Cargo terminalında, telefon qovşağlarında, kooperativ və ictimai təşkilatlarda, bütün dövlət idarə, təşkilat və orqanlarında, qeyri-dövlət qurumlarında, icra və probasiya şöbələrində, xəstəxanalarda, poliklinikalarda, prokurorluqlarda, polis, istintaq orqanlarında, digər dövlət strukturlarında təmsil etməyi, müəssisələrdən məlumat almağı, banklarda və bankların filiallarında, bank olmayan kredit təşkilatlarında nümayəndəm olmağı, hesablar açmağı, mənim adıma olan bütün hesablardan (depozit, ssuda, cari və s.) istifadə etməyi, həmin hesablar üzərində sərəncam verməyi, yeni hesablar, həmçinin kart hesabları açmağı, hesabları bağlamağı, hesabdan çıxarışlar etməyi, o cümlədən bütün bank əməliyyatlarını aparmağı (mədaxil, məxaric, köçürmə və s.), bu hesablarla bağlı müxtəlif məzmunlu arayışlar, çıxarışlar, çek kitabçaları almağı, çek kitabçalarında imza etməyi, bank kartlarını, kartları və onlarla aid olan məxfi kodları götürməyi, kartlar sifariş etməyi, dəyişməyi, bloka düşmüş kartları blokdan çıxarmağı, əmanətin müddəti bitdikdə onu yeni

müddətə yerləşdirməyi, icarəyə götürülən bank seyfləri ilə bağlı əməliyyatlar aparmağı (seyfə əşyaların (sənədlərin) qoyulması, onların götürülməsi), bank seyfinin icarəsində dair müqavilənin müddəti bitdikdə onu yeni müddətə bağlamağı, həmin müqaviləyə xitam verməyi, bankdan lazımı sənədləri (arayışları) almağı, təhvil verməyi, eləcə də adıma gələn yükləri qəbul etməyi, gömrük rəsmiləşdirilməsini həyata keçirməyi və gömrük rüsumlarını ödəməyi, adıma nömrələr rəsmiləşdirməyi, lazım gəldikdə onların dublikatlarını almağı, nömrələrdən çıxarışlar əldə etməyi, mənə aid olan istənilən arayışları, şəhadətnamələri, həmçinin dövlət reyestrindən çıxarışları, texniki pasportları, əmlakın yüklü olub/olmaması haqqında arayışı və digər sənədləri almağı, mənə çatası sənədləri, arayışları, şəhadətnamələri almağı, mənim adımdan bütün sənədləşmə işlərini aparmağı, istənilən orqana sənəd təqdim etməyi, kommunal və digər xərcləri ödəməyi, adımdan daşınmaz əmlaka sərəncam verilməsi və daşınmaz əmlakın ipotekaya qoyulması ilə bağlı razılıq ərizələri və digər ərizələri verməyi, imzalamağı, mənə çatası pulları almağı, istənilən orqana adımdan ərizə ilə müraciət etməyi, sorğular verməyi, o cümlədən məni məhkəmə orqanlarında, Mediasiya Təşkilatları və Mediasiya qurumları qarşısında təmsil etməyi, istənilən növ sənədlərə və protokollara imza etməyi, qanunla iddiaçıya, cavabdehə, üçüncü şəxsə, zərərçəkmişə verilmiş bütün hüquqları, o cümlədən iddia ərizəsini imzalamaq, iddia tələblərindən tam və ya qismən imtina etmək, iddianın təmin edilməsi, iddia predmetinin və əsasının dəyişdirilməsi, barışıq sazişi bağlanması və bu səlahiyyətin başqa şəxsə tapşırılması, məhkəmə aktının məcburi icrası tələbləri, qət olunmuş əmlakı və ya pul məbləğini almaq, işi sülh yolu ilə qurtarmaq, iddia tələblərini bütünlüklə və qismən etiraf etmək və ya onlardan imtina etmək, məhkəmə qərarının icrası orqanlarında qanuni qüvvəsini almış məhkəmə qərarlarının icrası zamanaı tələbkar və ya borcluya verilən bütün səlahiyyətləri icra etməyi, məhkəmə aktlarının və icra vərəqəsinin surətini almasını, icra vərəqini icraya yönəltməsini, mənim əvəzimdən imza etməsini, zəruri hallarda müvafiq ödənişlərin edilməsini, dövlət strukturlarında, polis orqanlarında, prokurorluqlarda, daxili işlər orqanında, bütün məhkəmə instansiyalarında (rayon-şəhər məhkəmələrində, ixtisaslaşmış məhkəmələrdə, appelyasiya məhkəmələrində və Ali Məhkəmədə), məhkəmə icra şöbələrində mənə aid olan mülki, inzibati və cinayət işlərini aparmağı, zərərçəkmiş şəxsi təmsil etməyi, lazımi sənədləri imzalamağı, barışıq sazişi bağlamağı, həmin sazişə imza etməyi, ləğv etməyi, adımdan razılıq ərizələri verməyi, imza etməyi, məhkəməyə şikayət etməyi, adımdan ərizə verməyi, bütün məhkəmə aktlarından şikayət verməyi, həmin şikayətləri imzalamaq hüququ daxil olmaqla və bu tapşırığın yerinə yetirilməsi ilə əlaqədar olan, habelə mülki prosessual məcəllənin 47-ci və 74.2-ci maddəsində nəzərdə tutulmuş bütün hərəkətləri etməyi etibar edirəm. ***

Etibarnamə **10 il** müddətinə verilib və **01.11.2030-**cu il saat **23:59-**dək qüvvədədir.
Bu etibarnamə üzrə səlahiyyətlət başqa şəxsə ötürülə **BİLMƏZ**.
Bu etibarnamənin dublikatı etibar edilən şəxsə verilə **BİLƏR**.
Bu etibarnamə təsdiq edilməsi anına və ondan sonra əldə edilmiş əmlaklara, hüquqlara və digər əməliyyatlara şamil edilir.

**Qeyd: Bu etibarnamə və bunun əsasında etibar edilmiş etibaretmə əsasında verilmiş digər etibarnamə Azərbaycan Respublikası Mülki Məcəlləsinin 365.2-ci maddəsinin tələblərinə uyğun olaraq etibarnaməni verən şəxsdən (təmsil ediləndən) başqa digər şəxs tərəfindən ləğv edilə BİLMƏZ.**

İmza: ________________________________________

**Bir noyabr iki min iyirminci il**

Şəkil yeri

Mən, Bakı şəhəri 18 saylı notariat ofisinin Xüsusi notariusu Osmanov Lətif Pirqulu oğlu bu etibarnaməni təsdiq edirəm. Etibarnaməni **HƏSƏNOV TEYMUR CAVANŞİR OĞLU** şəxsən özü mənim iştirakımla imza edib. Etibar edənin şəxsiyyəti müəyyən edilib, fəaliyyət qabiliyyəti yoxlanılıb.

Reyestrdə **8C-3378** nömrəsi ilə qeyd edilib. İnformasiya sisteminə daxil edilib.
11.50 manat haqq tutulub.

**M.Y.** Notariat hərəkətini aparmağa
müvəkkil edilmiş şəxsin imzası ____________________

*Sənədin həqiqiliyini QR kod vasitəsilə yoxlamağınız tövsiyyə edilir.*
*It is recomended to check the authenticity of the document using a QR-code.*
**www.notariat.az**

**çap tarixi: 01.11.2020 11:24**
**2427888115598**
**Blank nömrəsi: 649435**

***Qoşma 5. Sığortadan imtina məktubu***

PREMIUM HƏYAT

№ PRE-002312/22

Hörmətli Nailə Osmanova,

Teymur Həsənov Cavanşir oğluna I dərəcə əlillik təyin edilməsi ilə əlaqədar sığorta ödənişinin verilməsi üçün ümumi etibarnamə əsasında bizə ünvanladığınız 05 dekabr 2022-ci il tarixli müraciətinizlə bağlı təqdim olunmuş sənədlər əsasında tərəfimizdən tam və hərtərəfli araşdırma aparılmışdır.

Araşdırma nəticəsində məlum olmuşdur ki, Teymur Həsənov Cavanşir oğlu şirkətimiz tərəfindən 15.11.2021-ci il tarixli Cred - 0792/21 nömrəli Sığorta şəhadətnaməsi üzrə sığortalanmış və sığorta şəhadətnaməsi üzrə sığorta məbləği – 45 000 AZN təşkil etmişdir. Sığortalı Teymur Həsənov Cavanşir oğluna məcburi hərbi xidmətdə olarkən yaralanma nəticəsində 27 noyabr 2022-ci il tarixində Rusiya qanunvericiliyinə uyğun olaraq I qrup əlillik təyin edilmişdir.

15.11.2021-ci il tarixli Cred - 0792/21 nömrəli Sığorta şəhadətnaməsinin 8-ci bəndində qeyd edilmişdir ki, "Bu sığorta müqaviləsi üzrə müharibə istisna olmaqla, bütün hərbi əməliyyatlara təminat verilir."

Azərbaycan Respublikasının Maliyyə Nazirliyi Kollegiyasının 23 sentyabr 2014-cü il tarixli Q-21 nömrəli qərarı ilə təsdiq edilmiş "Fiziki şəxslərə təqdim edilən kredit müqavilələri üzrə borcalanın həyatının ölüm halından və əmək qabiliyyətinin itirilməsi hallarından sığortası qaydaları"nın (bundan sonra mətndə "Qaydalar") 6.6-cı bəndinə əsasən sığorta müqaviləsi bağlanarkən sığortalı özünə məlum olan, habelə sığortaçının yazılı surətdə tələb etdiyi və müqavilədən imtina etmək, yaxud onu məzmunu dəyişdirilmiş şəkildə bağlamaq qərarına təsir göstərə bilən bütün hallar barədə sığortaçıya məlumat verməlidir.

Lakin, elektron qaydada (+994 50) 347-65-33 nömrəsinə göndərilən OTP vasitəsilə 15.11.2021-ci il tarixdə təsdiq edilmiş sığortalanma barədə ərizə formasında sığortalıya verilən suallar içərisində yer alan *"Hərbi mükəlləfiyyətiniz mövcuddurmu? (Əgər "Bəli" seçmisinizsə, aşağıda ətraflı qeyd edin.)"* sualına *"Bəli"* cavabı qeyd edilsə də, doldurulması zəruri olan "Qeyd hissəsi" xanasını boş saxlanmışdır. Əgər sığortalı tərəfindən həmin xana doldurulmuş olsa idi, sığorta şəhadətnaməsi standart yox, qeyri-standart şərtlərlə bağlanmış olacaqdı, yəni risklər anderrayterlərimiz tərəfindən daha ətraflı təhlil ediləcəkdi və "Hərbi əməliyyatlar" ümumən istisna kimi müəyyənləşdiriləcəkdi. Beləliklə, hərbi mükəlləfiyyət olduğu təqdirdə sığortalıya sığorta şəhadətnaməsinə görə təyin edilməli sığorta haqqı 234,46 AZN olacaqdı. (Standart şəhadətnamə üzrə hesablasaq, 164,14 AZN-dir.)

Bununla da, Qaydaların 9.2.1-ci bəndində nəzərdə tutulmuş sığortalanma haqqında ərizədə qoyulan suallara doğru cavab vermək vəzifəsi sığortalı tərəfindən pozulmuşdur.

Həmçinin Teymur Həsənov Cavanşir oğluna I dərəcə əlillik Rusiya Federasiyası qanunvericiliyə görə təyin edilmişdir. Biz isə sığortalılara yalnız Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən təyin edilmiş əlilliyə görə sığorta ödənişi verə bilərik.

Yuxarıda qeyd edilənlər, Qaydaların 6.6 və 18.1.3-cü bəndləri, eləcə də Azərbaycan Respublikasının Mülki Məcəlləsinin müvafiq maddələrinə uyğun olaraq Teymur Həsənov Cavanşir oğluna təyin edilmiş əlilliyə görə sığorta ödənişi həyata keçirilə bilməz.

Hörmətlə,



Mövlan Yusifov

Sığorta iddiaları şöbəsinin baş mütəxəssisi

Tarix: 16 dekabr, 2022

## *Qoşma 6. Elektron poçt yazışmaları*

**From:** Teymur Hasanov thesenov1981_ahmedli@gmail.com
**Sent:** Sunday, March 05, 2023 10:26 AM
**To:** Claims Division claims@premium-life.az
**Subject:** Sığorta ödənişindən imtina

Hörmətli "Premium Həyat Sığorta" Komandası,

Sığorta ödənişi ilə bağlı ərizəmə əsasən, mənə göndərdiyiniz imtina məktubunu aldım. Lakin qeyd etmək istəyirəm ki, imtina məktubunda sığorta ödənişindən imtina əsasları kimi qeyd etdiyiniz məqamlarla, eləcə də Rusiya-Ukrayna münaqişəsinin sizin tərəfinizdən "müharibə" kimi təfsir edilməsi ilə razı deyiləm. Bu münaqişə Rusiya prezidenti Putin tərəfindən müharibə kimi qəbul edilmir.

Habelə qeyd etmisiniz ki, mən "Ətraflı doldurmaqla" bağlı tələbləri pozmuşam. Birinci qeyd edim ki, sığorta müqaviləsini mən doldursam da, sığorta ərizəsini heç mən doldurmamışam, mənim övladımın anası Nailə Osmanova doldurub. Telefon nömrəsi də ona məxsusdur. Lap mən doldursa idim belə, sizin üçün həmin xana vacib olsa idi, onu doldurmadan müqavilə bağlanmamalı idi.

Bununla yanaşı, mən məxfi məlumatlarımın qorunması ilə bağlı ciddi narahatam. Şəxsi məlumatlarım mənim razılığım olmadan üçüncü şəxslərlə niyə və hansı əsasla paylaşılıb? Bu sizin fəaliyyətinizin necə "hüquqi" olduğunu göstərir. Mənim sığorta müqaviləsi barədə məlumatlarımı mənim yazılı imzam olmadan məktub kimi niyə Nailə Osmanovaya göndərmisiniz? Buna görə mən sizdən mənə dəymiş zərər kimi 5.000 AZN tələb edirəm!

Sizin imtina məktubunda mən gördüm ki, qeyd etmisiniz ki, sığorta haqqı standart olaraq 164,12 AZN olmalıdır, mənim şəhadətnaməmdə isə bu 205,15 AZN-dir. Bunun səbəbini mənə izah edə bilərsinizmi?

Xahiş edirəm ki, müraciətim barəsində mənə ətraflı məlumat verəsiniz.

Hörmətlə,
Teymur Həsənov

Sent from Outlook for iOS

---

**From:** Claims Division claims@premium-life.az
**Sent:** Monday, March 13, 2023 2:45 PM
**To:** Teymur Hasanov thesenov1981_ahmedli@gmail.com
**Subject:** Re: Sığorta ödənişindən imtina

Hörmətli Teymur Həsənov,

Müraciətiniz üçün təşəkkür edirik.

Müqavilənizin şərtlərini nəzərdən keçirdik və vurğulamaq istəyirik ki, Rusiya-Ukrayna münaqişəsi hüquqi müstəvidə beynəlxalq hüquqa əsasən "müharibə (hərbi əməliyyat)" kimi qiymətləndirilir. Sığorta şəhadətnaməsinin məzmunundan da aydın olduğu kimi, müharibə zamanı hərbi əməliyyatlara təminat verilmir və bu səbəbdən də sığorta ödənişinin verilməsi ilə bağlı müraciətinizə müqavilənin müharibə ilə bağlı istisnalarına əsasən, imtina verilmişdir.

Müraciətinizdə qeyd edirsiniz ki, sığortalanma barədə ərizə sizin tərəfinizdən doldurulmayıb. Qeyd edək ki, Nailə Osmanovanın bizə təqdim edilmiş ümumi etibarnaməsi mövcuddur, həmin etibarnaməyə əsasən,

o ərizəni doldura bilərdi. Əgər siz yenə də ərizənin etibarsızlığını iddia edirsinizsə, sığorta şəhadətnamənizin "Şərtlər" hissəsinin 7-ci bəndinə əsasən, ərizənin etibarsızlığı sığorta müqaviləsinin etibarsızlığı mənasına gəlir. Bu isə o deməkdir ki, biz sizə heç bir ödəniş verə bilmərik.

Ümumiyyətlə isə Mülki Məcəllənin 911.2-ci maddəsinə əsasən, sığortalı sığorta müqaviləsi bağlanarkən müqaviləyə təsir edəcək bütün məlumatlar barədə sığortaçıya məlumat verməlidir. Siz isə faktiki olaraq Rusiya qarşısında hərbi mükəlləfiyyətiniz olsa da bu barədə bizə məlumat verməmisiniz.

Məlumatlarınızın məxfiliyinin qorunması ilə bağlı hissədə isə qeyd etmək istəyirik ki, "Sığorta fəaliyyəti haqqında" AR Qanunu çərçivəsində sığorta sirri hesab edilən məlumatlarınızın məxfiliyinin qorunması təmin edilir.

Belə ki, Nailə Osmanova sığorta şirkətinə müraciət zamanı etibarnamə təqdim etmişdir ki, bu etibarnamədə ona "müəssisələrdən məlumat almaq" səlahiyyəti verilmişdir. Habelə müqaviləyə əsasən sığortalının ailə üzvləri faydalanan şəxs hesab edilir. Belə olduqda, övladınız Adil Həsənovun faydalanan şəxs kimi sığorta məlumatlarına çıxışı mövcuddur. Nailə Osmanova da onun qanuni nümayəndəsi kimi bu hüquqa sahibdir. Qeyd edək ki, sığorta şəhadətnamənizdə sığorta əməliyyatı aparmaq məqsədilə məlumatların digər şəxslərə ötürülə bilməsi imkanı da nəzərdə tutulmuşdur. Bununla yanaşı qeyd edək ki, sığorta müqaviləsi elektron qaydada bağlanılmışdır, Mülki Məcəllənin 903.7-ci bəndinə əsasən, siz sığorta haqqı ödəməklə müqavilənin bütün şərtlərini qəbul etmisiniz. Odur ki, burada əlavə olaraq sığortaçı tərəfindən yazılı imza tələb olunmur, sığorta haqqı yazılı imzanı əvəz edir.

Ümumiyyətlə, əgər biz sığorta sirrinin mühafizə qaydasını pozmuş olsa idik belə, sizə bu pozulma ilə bağlı faktiki heç bir zərər dəymədiyi üçün 5.000 AZN məbləğ ödəməməli idik. Bu məbləğin özünün də hər hansı bir əsaslandırması mövcud deyildir. Siz sadəcə özünüzdən rəqəm deyirsiniz.

Sığorta haqqı ilə bağlı sualınıza gəldikdə isə kredit götürdüyünüz "Güvən Bank" ASC sizin müqavilə üzrə bizim sığorta agentimizdir. Ona ötürülən məlumatlar bizə də ötürülmüş hesab edilir. Siz Banka kredit müraciəti edərkən xəstəlik vərəqəsində olduğunuzu bildirdiyiniz üçün bu məlumat avtomatik inteqrasiya ilə bizə də gəlmiş və buna uyğun olaraq da sizə anderraytinq əlavəsi edilmişdir.

Daha ətraflı məlumat üçün bizimlə əlaqə saxlaya bilərsiniz.

Hörmətlə,

**Claims Division, Premium Life Insurance OJSC**

Aghaoghlu Plaza, 53 A.Gasanov ave., AZ1103 Baku, Azerbaijan
tel.: +994.12.111 (ext. 21)
email: office@premium-life.az | www.premium-life.az
PRIVILEGE AND CONFIDENTIALITY NOTICE
This e-mail message and all attachments transmitted with it are intended solely for the use of the addressee and may contain legally privileged and confidential information. If the reader of this message is not the intended recipient, or an employee or agent responsible for delivering this message to the intended recipient, the reader is hereby notified that any dissemination, distribution, copying, or other use of this message or its attachments is strictly prohibited. If you have received this message in error, please notify the sender immediately by replying to this message and please delete it from your computer.

---

**From:** Teymur Hasanov thesenov1981_ahmedli@gmail.com
**Sent:** Saturday, March 18, 2023 07:43 AM
**To:** Claims Division claims@premium-life.az
**Subject:** RE: Sığorta ödənişindən imtina

Hörmətli "Premium Həyat Sığorta" Komandası,

Məktubunuza cavab olaraq bir daha bildirirəm ki, Rusiya-Ukrayna münaqişəsi "müharibə" kimi qiymətləndirilmir. Rusiya mətbuatını oxuya bilərsiniz. Siz hansı əsasla müharibə hesab edib ödənişdən imtina edirsiniz? Hansı "Beynəlxalq hüquq"da belə yazılıb? Mənim özümün Rusiya vətəndaşlığım da mövcuddur, rus vətəndaşı kimi orduda xidmət etmişəm, deməli, bu, müharibə kimi nəzərə alına bilməzdi.

Bu sadəcə ödənişdən imtina üçün tərəfinizdən uydurulmuş yalan, bəhanə kimi görsənir.

İnteqrasiya barədə yazdıqlarınız da məni çox təəssüfləndirdi. Siz mənim məlumatlarımı başqalarına ötürməklə qalmamış, həm də bankdan qanunsuz əsasda mənim məlumatımı da almısınız. Bu məlumat bank sirri idi və sizə verilməməli idi! Buna görə də sizdən əlavə 10.000 AZN kompensasiya tələb edirəm!

Bu almamalı olduğunuz məlumatla da məndən 2 il ərzində 80 manatdan çox əlavə sığorta haqqı almısınız. Ayıb olsun! Bu vəsaiti də mənə qaytarmalısınız!

Ümumən, qanunda harda yazılıb ki, elektron qaydada kimsə kiməsə məlumat ötürə bilər? Mənim imzam olmadan siz necə məlumatımı Nailə Osmanovaya ötürə bilmisiniz?! Sığorta haqqı ayrı, fərdi məlumat ayrı! Bu başqa qanunla tənzimlənir.

Xahiş və tələb edirəm ki, müraciətimi təkrar qiymətləndirəsiniz və ödənişimi edəsiniz. Əks təqdirdə sizinlə məhkəmədə hesablaşacağıq.

Hörmətlə,

Teymur Həsənov
Sent from Outlook for iOS

---

**From:** Claims Division claims@premium-life.az
**Sent:** Friday, March 31, 2023 10:02 AM
**To:** Teymur Hasanov thesenov1981_ahmedli@gmail.com
**Subject:** Re: Sığorta ödənişindən imtina

Hörmətli Teymur Həsənov,

Sizin son məktubunuzu aldıq. Qeyd edək ki, "Premium Həyat Sığorta" ASC fəaliyyətini qanunvericiliyə uyğun tənzimləyən və müştəri məmnuniyyətini yüksək səviyyədə qorumağa çalışan bazarın ən qabaqcıl və nüfuzlu sığorta şirkətlərindən biridir. Məhz bu səbəbdən də fəaliyyətimizdə hüquq normalarını üstün tutduğumuza görə çox təəssüf ki, Rusiya-Ukrayna münaqişəsinin "müharibə" hesab edilməməsi ilə bağlı Rusiya mətbuatında yazılanlara əsaslana bilmirik.

Beynəlxalq hüququ müstəvidə bu münaqişə "müharibə, hərbi əməliyyat" kimi qiymətləndirilir. Bu məqsədlə müraciətinizi qiymətləndirərkən sığorta müqaviləsinin şərtlərini və "hərbi əməliyyatlara" təminat verilmədiyini nəzərə alaraq sığorta ödənişindən imtina verilməsi barədə qərar qəbul edilmişdir.

Məlumatlarınızın məxfiliyinin qorunması ilə bağlı narahatlığınıza gəldikdə isə qeyd etmək istəyirik ki, məlumatlarınızın tam məxfiliyini təmin edirik. İstədiyiniz hər hansı bir məlumat üçün bizimlə əlaqə saxlaya bilərsiniz. Bundan əlavə bildiririk ki, "Güvən Bank" ASC-yə ötürdüyünüz məlumatların mühafizəsi üçün məlumat saxlayıcısı olaraq onlar məsuliyyət daşıyır. Tələbinizi onlara ünvanlasanız daha düzgün olar.

Bütün digər məsələlərlə bağlı suallarınız əvvəlki məktublarda cavablandırılmışdır.

"Premium Həyat Sığorta" ASC olaraq Sizin gözləntilərinizi qarşılaya bilmədiyimiz üçün Sizdən üzr istəyir və bizi anlayışla qəbul edəcəyinizi ümid edirik.

Hörmətlə,

**Claims Division, Premium Life Insurance OJSC**

"Aghaoghlu Plaza", 53 A.Gasanov ave., AZ1103 Baku, Azerbaijan
tel.: +994.12.111 (ext. 21)
email: office@premium-life.az | www.premium-life.az

PRIVILEGE AND CONFIDENTIALITY NOTICE
This e-mail message and all attachments transmitted with it are intended solely for the use of the addressee and may contain legally privileged and confidential information. If the reader of this message is not the intended recipient, or an employee or agent responsible for delivering this message to the intended recipient, the reader is hereby notified that any dissemination, distribution, copying, or other use of this message or its attachments is strictly prohibited. If you have received this message in error, please notify the sender immediately by replying to this message and please delete it from your computer.